# Gələn ildən vergi ödəyiciləri 9 növ elektron qaimə-faktura verə biləcəklər

Vergi Məcəlləsinə dəyişikliklərlə əlaqədar 2020-ci ildən elektron vergi hesab-fakturası tam şəkildə elektron qaimə-faktura ilə əvəz olunaraq, vahid sənəd formasında təqdim ediləcək. Bununla yanaşı, elektron qaimə-fakturaların fəaliyyət növləri üzrə fərqləndirilməsi nəzərdə tutulur. Qeyd edək ki, bu dəyişikliklərin edilməsi sahibkarlar və mühasiblərlə görüşlərin nəticəsində qərara alınıb.

Yeni dəyişikliyi "vergiler.az" saytı üçün şərh edən İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin rəhbəri Radil Fətullayev bildirib ki, 2017-ci ildə elektron qaimə-fakturanın tətbiqindən sonra sahibkarların və mühasiblərin işi artdı. Çünki onlar malların təqdim edilməsini, xidmətlərin göstərilməsini və işlərin görülməsini təsdiq etmək üçün eyni məlumatları həm vergi hesab-fakturasında həm də elektron qaimə-fakturada təqdim edirdilər. Gələn ildən isə sahibkarların bu işi asanlaşdırılacaq: "Əslində, eyni məlumatlar - malların dəyəri, ölçüsü, ƏDV-nin hesablanması və digər məlumatlar elektron qaimə-fakturada göründüyünə görə vergi hesab-fakturasına ehtiyac yox idi.

Mühasiblərin elektron qaimə-fakturanın yazılması ilə bağlı da ciddi problemləri var idi. Malların satışı, təqdim edilməsi zamanı elə vəziyyətlər olur ki, bəzən mallar təqdim olunur, əslində isə real satış prosesi getmir. Biz buna komisyon qaydasında malların satışı deyirik. Məsələn, şirkət malları gətirib mağazalarda vitrinə qoyur, lakin bu o demək deyil ki, həmin şirkət bu malları artıq satıb. Çünki malların geri qaytarılması prosesi də var. Bu zaman elektron qaimə-fakturanı yazan şirkət çətinlik çəkirdi. Çünki yalnız satış qaiməsi vardı və bu qaiməni yazan kimi avtomatik vergi hesablanırdı. Artıq yeni qaydalarda malların satışı ilə yanaşı, malların geri qaytarılması qaimə-fakturası da olacaq ki, bu da müəssisələr və mühasiblər üçün asanlıq yaradacaq. Artıq geri qaytarma qaiməsində nə qədər malın geri qaytarıldığı göstəriləcək və həmin hissəyə vergi hesablanmayacaq".

Yeni qaydalara əsasən, vergi ödəyicisi aparılan əməliyyatların xarakterinə görə doqquz növ elektron qaimə-faktura verə biləcək:

- malların, işlərin və xidmətlərin təqdim edilməsi barədə;
- malların qaytarılması barədə;
- malların qaytarılması istisna olmaqla, vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi barədə;
- malların agentə (komisyonçuya) verilməsi barədə;
- agent (komisyonçu) tərəfindən malların alıcısına təqdim edilməsi barədə;
- agentin (komisyonçunun) malları sahibinə qaytarması barədə;
- malların emala qəbul edilməsi barədə;
- emal prosesi keçmiş malların qaytarılması barədə;
- Vergi Məcəlləsinin 177.5-ci maddəsinə əsasən, ƏDV əməliyyatları barədə.

Vergilər Nazirliyinin Vergi siyasəti Vergi qanunvericiliyi idarəsinin rəisi Əvəz Quliyev bildirib ki, yeni dəyişiklik vergi ödəyiciləri üçün vergi inzibatçılığının sadələşdirilməsi və operativliyin təmin edilməsi məqsədi daşıyır : "ƏDV ödəyiciləri tərəfindən ƏDV-nin hesablanmasını və ödənilmiş ƏDV-nin əvəzləşdirilməsi məqsədilə də alınmış elektron qaimə-fakturalar əsas sənəd olacaq. Əgər bu vaxta qədər elektron qaimə-faktura yalnız mal, iş, xidmət təqdim edilməsini həyata keçirən sənəd idisə, gələn ildən elektron qaimə-faktura vergi ödəyiciləri arasında malların ümumən hərəkətini tənzimləyən ilkin uçot sənədi kimi çıxış edəcək.

Bu vaxta qədər təqdim edilən elektron qaimə-fakturalar üzərində hər hansı dəyişiklik olurdusa (məsələn, satılmış malların qiymətində artım, azalma), eyni zamanda mal partiyasının həcminin sonradan alıcı tərəfindən satıcıya geri qaytarılması zamanı elektron qaimə-faktura dəqiqləşdirilmiş şəkildə tərtib olunurdu və satıcı tərəfindən təqdim olunurdu. Artıq çevik sənədləşmə qaydalarını təmin etmək üçün vergi ödəyicisi aparılan əməliyyatların xarakterinə görə elektron qaimə-faktura verə biləcək".

Qeyd edək ki, 1 yanvar 2020-ci ildən elektron qaimə-fakturanı göndərən şəxs qarşı tərəfin razılığı olmadan sənədi ləğv edə bilməyəcək.

# Şabalıdın faydaları

Dadlı və qidalı meyvəsinə, yüksək keyfiyyətli oduncağına görə böyük əhəmiyyət kəsb edən şabalıd qiymətli meyvə bitkisi olmaqla yanaşı, həm də bir çox xəstəliklərin profilaktikasında və müalicəsində əla vasitədir. Şabalıdın meyvəsi karbohidratlar və zülallarla zəngindir.

Şabalıd meyvəsinin ləpəsində nişasta, şəkərlər, zülal, yağ, üzvi (alma və limon) turşular, vitaminlər, fermentlər var. Tam yetişməmiş meyvələrdə 1500 milliqram C vitamini olur.

Təzə halda şabalıd meyvələrinin kaloriliyi hər 100 qram meyvə üçün 166 kilokalori təşkil edir. Şabalıd ləpəsi təzə halda yeyilməkdən başqa qızardılır, suda pörtlədilir, qovrularaq qənnadı məmulatları hazırlamaq üçün istifadə olunur.

Şabalıd bir sıra milli xörəklərin hazırlanmasında çərəz kimi də işlədilir. Yarpaqlarında qlükozidlər, pektin və dabbaq maddələri, K vitamini vardır. Oduncağı, gövdə qa-



bığı, tumurcuq və yarpaqları 10-16 faiz dabbaq maddələrinə malikdir.

Xalq təbabətində şabalıdın yarpağından, oduncağından, gövdə qabığından, tumurcuğundan hazırlanmış həlim və ya dəmləməsi büzüşdürücü, yarasağaldıcı və yanığa qarşı vasitə kimi istifadə olunur. Eyni zamanda, yarpaq həlimi və ya dəmləməsi daxili qanaxmalar zamanı faydalı sayılır.

Quru meyvə həlimi və yarpaq dəmləməsi yuxarı nəfəs yolları xəstəliyi, təzə yarpaq dəmləməsi isə göyöskürək zamanı işlədilir. Qurudulmuş çiçəklərin spirt məhlulu xroniki dizenteriya və sidik kisəsinin iltihabı zamanı tətbiq olunur.

Təzə meyvə ləpəsi qan damarlarının varikoz genişlənməsi, kəskin ağrılı və xroniki tromboflibit, baldırlarda trofik yaralar, arterit, aterskleroz, xırda qan damarlarının tromboemboliyası zamanı faydalıdır.

Xalq təbabətində qızardılmış meyvələri qanaxma zamanı istifadə olunur.

Şabalıd ləpəsi zəifləmiş orqanizm üçün faydalıdır. Ondan acqarına yeyilməklə qurdqovucu vasitə kimi istifadə edilir.

Şəkərli diabet xəstəliyi olanlara şabalıd məsləhət görülmür.

# Təbiət hadisəsini müşahidə etmək mümkün olacaq

2020-ci ildə dünyada iki Günəş tutulması baş verəcək ki, onun da yalnız birini Azərbaycanda müşahidə etmək mümkün olacaq.

AMEA-nın Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından AZƏRTAC-a bildirilib ki, birinci Günəş tutulması iyunun 21-də olacaq. Tutulma hadisəsi Bakı vaxtı ilə 07:46-da başlayacaq və 13:34-də sona çatacaq. Tutulmanın maksimum həddi 10:41-də



olacaq. Təbiət hadisəsi 5 saat 48 dəqiqə davam edəcək.

Azərbaycan ərazisində isə qismən Günəş tutulması müşahidə olunacaq. Tutulma Azərbaycan ərazisi üçün 08:47-də başlayıb 11:05-də sona çatacaq və bu proses 2 saat 18 dəqiqə davam edəcək.

İkinci Günəş tutulması isə dekabrın 14-də baş verəcək. Bu tutulma tam Günəş tutulmasıdır. Tutulma hadisəsi Bakı vaxtı ilə 17:34-də başlayacaq və 22:53-də sona çatacaq. Tutulma maksimum həddə 20:15-də çatacaq. Bu hadisə 5 saat 19 dəqiqə davam edəcək.

Bu təbiət hadisəsi Azərbaycanda müşahidə olunmayacaq.

# Yeni il adətləri

Havanada yeni il axşamı böyük çəlləklərə su doldurub pəncərələrə qoyurlar. Saat 12-ni vuran kimi köhnə ilə yaxşı yol diləmək məqsədilə suyu küçəyə atırlar. Yeni il axşamı hamının süfrəsində mütləq üzüm olmalıdır. Hər adam axşam saatın zəngləri vurduğu müddətdə 12 gilə üzüm yeməlidir. Bu o deməkdir ki, ilin on iki ayında sənin həyatın üzüm kimi şirin olacaq.

# Bunları bilmək maraqlıdır

- Bir qaşıq torpaqda Yer üzündəki insanların sayından daha çox canlı orqanizm var.
- Yer kürəsinin səthinin 1/3 - qismən və ya tamamən səhradır.
- Son 40 il ərzində vəhşi heyvanların sayı 50% azalıb.
- Sutka əslində 24 saatdan ibarət deyil. Yer kürəsi öz oxu ətrafında 23 saat 56 dəqiqə və 4 saniyəyə fırlanır.
- Kəpənəklər ayaqlarıyla dadırlar.
- Polşa yerli dildə "düzənliklər ölkəsi" deməkdir.
- İsaak Nyuton öz ideyalarını bəşəriyyətə bildirməyi qərara alana qədər onların haqqında 20 il ətraflı düşünmüşdür.
- Hazırda dəniz aləmində 180-nə yaxın balıq növü işıq görmədən yaşayır.
- Bir qarışqa yuvasına gündə təxminən 2 500 böcək daşıyır.
- Şəhadət barmağı insan əlinin ən hissiyatlı barmağıdır.

**Topladı: Səfa ASLANOV.**


**QƏBƏLƏ**

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

**qəzetinə**

**2020-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**

**«QƏBƏLƏ» qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**


# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Tikanlı kənd sakini **Cəlilov İbrahim Süleyman oğluna** verilmiş JN seriyalı 273 F nömrəli (kod 40615018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 5 fevral 1998-ci il tarixli 03 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Pirelov Serjik Mişayeviçə və ailə üzvlərinə** verilmiş JN seriyalı 343 nömrəli (kod 40600068) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Oğuz-Qəbələ-Bakı Sü Təchizatı Qurğuları Kompleksi tərəfindən 2012-ci ildə **İsayev Səbuhi Tərlan oğluna** verilmiş **1 saylı xidmət sahəsinin gözətçisi vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Çarxana kənd sakini **Hüseynov İxtiyar Allahyar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 105 nömrəli (kod 40604048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Nəsibov Nəsrəddin Sədir oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 1754 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **Nəbiyev Təbriz Musa oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 119 A nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1360*